

## ŞAHMƏMMƏD DAĞLAROĞLU

## İt ilinin ilk şeiri

Bəşər daşlasaydı hürən itləri,
Yerində qalmazdı dünyada bir daş.
Nə olsun adamdan sədaqətlidir,
Adam ola bilmir Bozdar, Alabaş.

İt nəfsi olan var, ittək qapan var,
İt kimi yaşayan adam var, matam.
Qardaş qardaşının başını kəsir,
İt itin ayağın tapdamır, atam.

İnsan gecələri rahatca yatır,
İtlərin gözündə açılır sabah.
Bu qədər etibar, sədaqət ilə,
Dil niyə vermədin itinə, Allah?

İt ili, at ili, öküz ili var,
Nə oldu, insana ilmi çatmadı?
Bəlkə canlılara il paylananda
Hürüb sahibini it oyatmadı?

Daha it pişiklə qol-boyun yatır,
İnsana dərs olmur olanlar hələ.
Görəsən, biz niyə çaşıb qalmışıq -
İtimiz elədir, özümüz belə.

## Salamımı alanlara

Səni siləcəyəm telefonumdan,
Deyib nota verdi bir yaxın adam.
Sil getsin, günahım - dərdi-sərimdi,
Bəxtim axsayandan çoxuna yadam.

Hamı qayğı umur, salam gözləyir,
Hamıya borcum var, bilmirdim bunu.

*Şahməmməd Nurulla oğlu Soltanov 1956-cı ildə İsmayıllı rayonunun Pirəqanım kəndində anadan olub. İsmayıllı şəhər 1 saylı orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra Göyçay 58 saylı orta texniki peşə məktəbində dülgər-xarrat peşəsi ilə yanaşı orta təhsil alıb. Ordu sıralarında xidmət edib.*

*Rayonun bir sıra tikinti idarələrində inşaatçı, Mücühaftaran və Ağbulaq kənd məktəblərində əmək təlimi müəllimi kimi çalışıb.*

*Rusiya Federasiyasında yaşadığı 1986-91-ci illərdə iqtisadçı-mühəndis ixtisası almaqla Novosibirsk Xalq Təsərrüfatı İnstitutunu bitirib. İsmayıllı rayonunun Ağbulaq kəndində bələdiyyə sədri vəzifəsində çalışıb.*

*Jurnalistika ixtisası üzrə birillik kurs bitirib. Rayonun Yerli Radio Verilişləri redaksiyasında redaktor vəzifəsində işləyib. Bələdiyyələr üzrə keçirilən ikinci, üçüncü və dördüncü seçkilərdə İsmayıllı bələdiyyəsinin üzvü seçilib.*

*Ş.Soltanov hazırda İsmayıllı bələdiyyəsinin üzvü, bələdiyyə yanında Yerli İqtisadi-İnkişaf və Sosial Məsələlər daimi komissiyasının sədridir.*

*Ş.N.Soltanov 1995-ci ildən Ana Vətən Partiyasının üzvü, partiyanın İsmayıllı rayon təşkilatının sədridir.*

*Erkən yaşlarından şeirlər yazmaqla yaradıcılığa başlayan Ş.Dağlaroğlu 5 kitabın müəllifi, 30-dan artıq kitabın redaktoru, 2 toplunun tərtibçisidir. Rus, özbək və tatar şairlərinin şeirlərindən tərcümələr edir. Şeirləri "Türk dünyası şairlərinin antologiyası"nda və digər almanaxlarda yer alıb. 2014-cü ildən təsisçisi olduğu "İsmayıllı Yazarları" ədəbi ictimai birliyinin sədridir.*

*Ş.Soltanov 2008-ci ildən çıxan "İsmayıllı xəbərləri" qəzetinin təsisçisi və baş redaktorudur.*

*Şair Ş.Dağlaroğlu 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin, 2017-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.*

Anadan olandan görə bilmədim,
Diqqətin, qayğının nə olduğunu.

Elə suallar var, cavabı yoxdur,
Dözürəm, susuram, fağıram, lalam.
Küssün küsənlərim, Allaha pənah,
Salam verənlərim! Əleykümsalam!

## Yeni il təbriki

Bəxtəvər başına ötən payızın,
Günlər uzandıqca ömür gödəlir.
Zaman alıb gedir əldə olanı,
İnsanın illərə yazığı gəlir.

Dünənki Yeni il köhnəlir bu gün,
Heç bilə bilmirsən vaxt hara getdi.
Qar qızla yol gələn Şaxta babalar,
Bizi sevə-sevə ağsaqqal etdi.

Heç nə ummayacam bu gələn ildən,
Ummuşam, nə verib ağlım kəsəndən?
Ruzimi, bəxtimi, can sağlığımı,
Səndən istəyirəm, İlahi, səndən!

Gözü toxlara ver yaxşı nə varsa,
El rahat yaşasın, düşmən xar olsun!
Göstər, ey təzə il, təzəliyini,
Qoy köhnə dostlarım gülsün, var olsun!

Nə qədər xoş arzu varsa, gül açsın,
Özünü bir mələk hiss etsin hərə.
Ürəkdən sevənlər, gülənlər ilə,
Çıxaq neçə-neçə yeni illərə!

## Olsun

Tanrım, çoxdan mənə çoxu qıymadın,
Razıyam, haqq-halal az mənim olsun.
Sevgi var, başqa var gəlməz ağlıma,
Sən onu bəxtimə yaz, mənim olsun.

Sevən sevgisini qandırsa - gözəl,
Yanmağım zövq olar, yandırsa gözəl.
Nazının dəyəri candırsa, gözəl,
Buyur, edəcəyin naz mənim olsun.

Mənəm dağ çayıtək haray qoparan,
Yolumda əngəli yuyan, aparan.
Sevda məqamında qalxan, qabaran
Sinələr üstündə saz mənim olsun.

Könlümün ünvanı, arzumun yarı,
Əlindən tutmağa razı ol, barı.
Neynirəm yüz illik şaxtanı, qarı,
Yarla bircə günlük yaz mənim olsun.

## Sevmək can borcumuzdur

Sən məni sevməsən, nə olacaqdı?
Mən səni sevməsəm, mən olmaz idim.
Mən səni sevməsəm, bu dar dünyada
Bu qədər ürəyi gen olmaz idim.

Sən Tanrı payısan, dərdə dəvasan,
Quru cismim üçün ruhsan, havasan.
Məni bənd eləyən məkan, yuvasan,
Sənsiz üzülərdim, şən olmaz idim.

Haqqa üz tutanın yolu olardım,
Eşqi saf olanın qulu olardım.
Məhəbbət yağışı, dolu olardım,
Heç kimin qəlbində çən olmaz idim.

Açan arzuları gültək yığardım,
Dedim: Dan sökülsün. Özüm ağardım.
Təmizlik xətrinə qartək yağardım,
Kimsənin saçında dən olmaz idim.

Şahməmməd, sevgidir yarama məlhəm,
Sevdikcə yaşadım, yox oldu dərd-qəm.
Sevmək can borcumdur, geri çəkilsəm,
Məcnuna, Kərəmə tən olmaz idim.

## Səndən başqasını sevən deyiləm

Tənha çiçəklərin, tənha güllərin
Sevəni çox olar, qoxlayanı az.
Tanrı iki qəlbi qovuşdurmasa,
Ayrılıq üz verməz, tənhalıq olmaz.

Təkliyə yar idim səni sevincə,
Rast gəlib dünyanı sevdirdin mənə.
Gündə min sevdalı yolumu kəssə,
Mən səni, mən səni sevərdim yenə.





Məni sən öyrətdin qəmzəyə, naza,
Saçımdan əlinin istisi getmir.
Göz yaşım axdıqca, dözümüm artır,
Mən sevda acıyam, bu mənə yetmir.

Hərdən döy qapımı, diksinib durum,
Bilim qapı döyən sənin əlindir.
Məni dəlilikdən sən qurtarmısan,
Neçəsi hələ də sənin dəlindir.

Sükuta bürünüb yatıram gecə,
Min şükür, deyəsən, açılır sabah.
Səndən başqasını sevən deyiləm,
Sən də tək, mən də tək, bu nədir Allah?!

## Gözəl

Çoxdandır görmürdüm gül-camalını,
Gözüm həsrət idi üzünə, gözəl.
Səni sevdiyini mənimtək rahat
Deyən olmuşdumu özünə, gözəl?

Dünyaya gəlişim deyil ilk dəfə,
Nə onda, nə indi baxmadım kefə.
Ovçunun gülləsi dəysə hədəfə,
Düşər öz ovunun izinə, gözəl.

Məcnun da dəlidir?! Ondan betərəm,
Bülbülü susdurub dil-dil ötərəm.
Sevmirəm söyləsən, ölüb-itərəm,
Bir də görünmərəm gözünə, gözəl.

Dünyamdır baxışın, nazın, görkəmin,
Gülüşün anasın ağladır qəmin.
"Can!" sözün şahıdır həbin, məlhəmin,
İnan Şahməmmədin sözünə, gözəl.

## Səni sevdiyimi niyə biləsən?

Dünyamı sevəsən, özümə baxıb,
Görüşə gələsən, sözümə baxıb.
Qəlbimi yandırıb, üzümə baxıb
Heç məni sevmirsən, deyə biləsən,
Səni sevdiyimi niyə biləsən?

Yarama duz səpmək əlindən gələ,
Uzaq dur, söyləmək dilindən gələ.
Dərdim anam sevən gəlindən gələ,
Məni işvə-nazla döyə biləsən,
Səni sevdiyimi niyə biləsən?

Dilim haray çəkir ağız içində,
Qələmim bekardır kağız içində,
Milyon gözəl gəlin, ya qız içində
Gözəl olduğunu öyə biləsən,
Səni sevdiyimi niyə biləsən?

Gül olub yağasan dəstələr kimi,
Hopasan ruhuma bəstələr kimi.
Könlü nar istəyən xəstələr kimi,
Barlı budağımı əyə biləsən,
Səni sevdiyimi niyə biləsən?

Bu paklıq, bəyazlıq ancaq qarda var,
Dodağın aldan al, bu rəng narda var.
Ədasız, xatasız gözəl harda var?
Dözərəm, xətrimə dəyə biləsən,
Səni sevdiyimi niyə biləsən?

Azmaram, dumanım, çənim olarsa,
Mən kiməm, bəxt mənə qənim olarsa?
Məst edən baxışın mənim olarsa,
Meylimi salmaram meyə, biləsən,
Səni sevdiyimi niyə biləsən?

Günəş salamlaya hər səhər səni,
Görəm hər görüşdə təzə, tər səni.
Gedəndə ruhumla bərabər səni,
Götürüb gedəcəm göyə, biləsən,
Səni sevdiyimi niyə biləsən?

## Sevgidir şahım

Bu qız baxışıyla adam öldürür,
Mənə inanmayan, gəlib görəydin.
Gözəllik vermisən buna, ay Allah,
Nə olar, bir az da insaf verəydin.

Gözələ baxmağın savabı varsa,
Niyə mən baxanda günah, ayıbdı?
Sevib altmışı ili vurmuşam başa,
Hələ də mən deyən gün olmayıbdı.

Bu qız qürurundan qalalar tikir,
Qürur gözəlliyə tac imiş, Allah!
Süfrədə az yeyib doyanların var -
Sevgidə ac oğlu ac imiş, Allah!

Dünya sevənlərin əlində çiçək,
Qoru sevənləri, qoru, Allahım!
Adım Şahməmməddi, adi Məmmədəm,
Sevənin quluyam, sevgidir şahım!

***

Duyğunun sərhədi, ölçüsü yoxdur,
Pis-yaxşı, hərənin öz dünyası var.
Sənət yaradanın, söz adamının
Əbədi yaşayan söz dünyası var...

## Yığ dərdini, gəl bizə

Taqət verər Haqq dizə,
Haqdır içim, özəyim.
Yığ dərdini, gəl bizə,
Boş evimi bəzəyim.

Kim dərdə sinə verib -
Ömrümü günə verib.
Allah mənə nə verib,
Odur bəzək-düzəyim.

Yox bu yoldan şən keçən,
Yoxdu sənə tən keçən.
Bircə yol var - sən keçən,
Yaraşarmı iz əyim?

Balıq çay nağılında,
Üzün Ay nağılında.
Qaldı yay nağılında
Qarım, qışım, xizəyim

Düz söz - acı kəlmədi,
Hamı qonaq, gəlmədi.
Heç ağlıma gəlmədi,
Dodaq büzəm, üz əyəm.

Xəyalları itir, gəl,
Uşaqlığı ötür, gəl.
Dərdlərini götür, gəl,
Ürəyimi bəzəyim.

## Sən bilirsən, mən kiməm

Doğulandan oyağam,
İlk eşqinə dayağam.
Bir az məcnunsayağam -
Sən bilirsən, mən kiməm.

Adım candır adında,
Yaşayıram odunda.
Nə demişəm, yadında,
Sən bilirsən, mən kiməm.

Dərdi bölən deyiləm,
Sənsiz gülən deyiləm.
Özüm bilən deyiləm,
Sən bilirsən, mən kiməm.

Arzular ölməz axı,
Hər gedən gəlməz axı.
Özgələr bilməz axı,
Sən bilirsən, mən kiməm.

Haqqa qurbandır canım,
Odur yolum, ünvanım.
Ay məni Yaradanım,
Sən bilirsən, mən kiməm.

## Ona qədər

Cansan özün, can sözün də,
Yardır mənə, ona qədər.
Can alansan, can sözündə
A uzanır on a qədər.

Ar azalmaz, topla, çıx - ar,
Tap nitqimdə kəsir, çıxar.
Yox söyləsən, canım çıxar,
Sayın olsa ona qədər.

Dağlaroğlu, bəxtiyaram,
Çox üzmədi bəxti yaram.
Eşqə düşəm, bəxti yaram,
Bəlli ola Ona qədər.





## Bilir

Xəyalımda bir gözəl var,
Ad çəkmirəm, özü bilir.
Onu necə sevdiyimi,
Zalım duymur, yüzü bilir.

Tamaşadır üzü, əli,
Dilləndirər daş heykəli.
Mənim könlüm bu gözəli,
Gözəllərin gözü bilir.

Baxışında həyat tamı,
Dodaqları şətbət camı.
Ürəyimdə yanan şamı
Son sevdamın közü bilir.

Mən dinəndə, bal dadıram,
Mavi, yaşıl, al dadıram.
Haqqam, yoxsa aldadıram,
Tək Yaradan düzü bilir.

## Məndə

Bir haldayam, Yaradan da
Hal deməyir hala məndə.
Kərpic-kərpic sökülübdür,
Min alınmaz qala məndə.

Keçdim gədik, dolama mən,
Qul oldum haqq-salama mən.
Can bəxş etdim balama mən,
Can qoymadı bala məndə.

Dağım dağla yarışıbdır,
Ruhum dərdlə barışıbdır.
Vətən! - deyib qarışıbdır
Mavi, yaşıl ala məndə.

Yaradır - baxsan harama,
Məlhəm qoyan yox yarama.
Dillilər dindi qarama,
Eşq oyandı lala məndə.

Yar, yaxın gəl, yara sarı,
Sənsiz günüm qara, sarı.
Yol gedirəm gora sarı,
Bəxt yeriyir dala məndə.

## Vurulmuşam, qız, sənə

Qaşı Ay misallı yar,
Gəl, olum vüsallı yar.
Həsrətin üzür məni,
Üzü qara xallı yar.

Çox istərəm canımdan,
Sənin kimi gözəli.
Ötmək olmur yanından,
Özü, sözü məzəli.

Səni görən kəslərin,
Qaçıb gözdən yuxusu.
Gəlir güllü yaxandan,
Tər bənövşə qoxusu.

Çox acıdır həsrətin,
Dodaqların baldı, yar.
Getdin, gözəl surətin,
Gözlərimdə qaldı, yar.

Gələydin ay batanda,
Hər nazına dözərdim.
Əlim sənə çatanda,
Həyatdan əl üzərdim.

Nazını sayıram can,
Vermə nazına ara.
Ölmərəm, sevsən məni,
Ay qaşı, gözü qara.

Ölüncə edərəm tab,
Təki sevəsən məni.
Xoşdur verdiyin əzab,
Sevirəm, canım, səni.

Bəxtəvərsən, bəxş edib,
Tanrı Aytək üz sənə.
Barı xəbərin olsun,
Vurulmuşam, qız, sənə.

## O qızı qınamayın

Naz satır günə, aya,
Sevdası donüb çaya.
Vurulub bir qocaya,
O qızı qınamayın.

Dönüb dərdsiz uşağa,
Baxmır qaraya, ağa.
Sevgiyə yox qadağa,
O qızı qınamayın.

Yuxudadır, yuxuda,
Tər bənövşə qoxuda.
Bilmir utanc, qorxu da,
O qızı qınamayın.

Bu yuxudan oyansa,
Gedib, gedib dayansa...
Eşqi ona həyansa,
O qızı qınamayın.

Səvəni, qucası yox,
Gözündə ucası yox.
Allahdan qocası yox -
O qızı qınamayın.

## Gözəl gözəldən gözəl

Gözəl, göz əldən gözəl,
Bu gözəl oda gözəl.
Gözəl gözəldən gözəl,
Bu gözəl, o da gözəl.

Tab gətir sən, yan, a ram,
Tab gətirsən, yanaram.
Tab gətir sən, yan, aram,
Bu gözəl oda, gözəl.

Baxsan, a Dağlaroğlu,
Bax sana, Dağlaroğlu.
Baxsana, Dağlaroğlu,
Bu göz-əl; o da göz-əl?